KNF - POLŞANIN MALİYYƏ NƏZARƏTİ AGENTLİYİ

İLƏ

AZƏRBAYCAN RESPUBLİKASININ

QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

ARASINDA

İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ HAQQINDA

MEMORANDUM

KNF - Polşanın Maliyyə Nəzarəti Agentliyi ilə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi arasında ikitərəfli əməkdaşlıq haqqında

MEMORANDUM

Bundan sonra "Tərəflər" adlandırılacaq KNF - Polşanın Maliyyə Nəzarəti Agentliyi ilə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi,

Polşa Respublikası və Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin və əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədləri ilə,

milli qiymətli kağızlar bazarının fəaliyyəti barədə məlumat mübadiləsi ilə bağlı birgə maraqlardan çıxış edərək,

Tərəflərin birinin ölkəsinin investor və kapital bazarı vasitəçilərinin digər Tərəfin ölkəsinin qiymətli kağızlar bazarında iştirakını təşviq etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1. Anlayışlar

Bu Memorandumun məqsədləri üçün

- **"Milli qanunvericilik"** – Tərəflərin yurisdiksiyasına aid olan Qanunların müddəaları, Əsasnamələr və Tərəflərin səlahiyyətlərinə daxil olan digər tənzimləyici tələbləri bildirir;
- **"Sorğu Alan Tərəf"** – bu Memorandumun çərçivəsində sorğunun ünvanlandığı Tərəfi bildirir;
- **"Sorğu Edən Tərəf"** – bu Memorandum çərçivəsində sorğu edən Tərəfi bildirir;
- **"Səlahiyyətli şəxslər"** – Tərəflərin səlahiyyətli orqanları tərəfindən verilmiş icazələr əsasında qiymətli kağızlar bazarında fəaliyyət göstərən fiziki və ya hüquqi şəxsləri bildirir.

Maddə 2. Prinsiplər

1. Bu Memorandumun məqsədi əməkdaşlıq üzrə çərçivə və qarşılıqlı anlaşma və məlumat mübadiləsi vasitəsilə Tərəflər arasında gündəlik ikitərəfli əməkdaşlığın əsaslarını yaratmaqdan, Tərəflərin öz funksiyalarını yerinə yetirməsinin səmərəliliyini artırmaq üçün qarşılıqlı yardım sistemini qurmaqdan, investorların hüquqlarının müdafiəsi və tənzimlənən fond bazarlarının dürüstlüyünü təşviq etməkdən, həmçinin bazar institutları və vasitəçiləri arasında əməkdaşlığı genişləndirməkdən ibarətdir.

2. Bu Memorandum Polşa Respublikası və Azərbaycan Respublikasının milli qanunvericiliyinə uyğun olaraq Tərəflərin səlahiyyətləri çərçivəsində əməkdaşlığın əsasını təşkil edir.

3. Bu Memorandumun müddəaları hüquqi öhdəlik yaratmır və milli qanunvericiliyi əvəz etmir.

4. Bu Memorandumun müddəalarının tətbiqi Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə və tərəfdar çıxdıqları beynəlxalq müqavilələrə uyğun həyata keçirilir.

5. Bu Memorandumun müddəalarının tətbiqi Tərəflərin üzv olduğu digər beynəlxalq razılaşmalardan irəli gələn hüquq və öhdəliklərə təsir göstərmir.

6. Polşa Respublikası və Azərbaycan Respublikasının milli qanunvericiliyinə müvafiq olaraq, hər bir Tərəf digər Tərəfi öz tənzimləyici funksiyalarını yerinə yetirməsinə yardım edəcək məlumatlarla təmin etmək üçün lazımi səyləri göstərir.

Maddə 3. Əhatə dairəsi

Tərəflər funksiyalarının icrasına yardım etmək məqsədilə öz səlahiyyətləri çərçivəsində aşağıdakı sahələr üzrə qarşılıqlı yardım və məlumat mübadiləsini həyata keçirməyə razılaşırlar:

- Tərəflərin tənzimləyici potensialının artırılması;
- Hər iki Tərəfin yurisdiksiyasında olan tənzimlənən bazarlarda peşəkar fəaliyyətlə məşğul olan səlahiyyətli şəxslərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi;
- Qabaqcıl beynəlxalq standartlara uyğunluğun təmin edilməsi;
- Tərəflər arasında texniki əməkdaşlıq və yardım;
- Tərəflər arasında razılaşdırılmış digər məsələlər.

Maddə 4. Əməkdaşlıq metodları

Bu Memorandumun həyata keçirilməsi üçün Tərəflər öz səlahiyyətləri çərçivəsində aşağıdakı formalarda əməkdaşlıq edə bilərlər:

- Məlumat mübadiləsi;
- Qarşılıqlı məsləhətləşmələr və ekspert səfərləri;
- Tərəflər arasında razılaşdırılmış digər formalarda.

Maddə 5. Sorğular və onların icrası

1. Bu Memorandumun 6-cı maddəsinə zidd olmayaraq Tərəflər sorğu əsasında aşağıdakı məlumatları bir-birilə bölüşürlər:
   - Qiymətli kağızlar bazarı və səlahiyyətli şəxslərin fəaliyyətinin tənzimləyici çərçivəsini müəyyən edən qanun, qayda, standart və peşəkar tələblər, həmçinin həmin sənədlərdə edilmiş əhəmiyyətli dəyişikliklər;
   - Milli qanunvericiliyə müvafiq olaraq, qanunların yerinə yetirilməsi, ədalətli və etibarlı ticarətin aparılması üçün səlahiyyətli şəxslər üzərində nəzarəti həyata keçirmək üçün zəruri olan məlumatlar;

2. Sorğular yazılı şəkildə ingilis dilində tərtib edilir və məktublar mübadiləsi vasitəsilə Sorğu alan Tərəfin müvəkkil etdiyi əlaqələndirici şəxsə ünvanlandırılır.

3. Sorğularda aşağıdakılar əks olunmalıdır:

- Sorğu edən Tərəfin sorğu etdiyi məlumatın ümumi təsviri;
- Sorğunun predmeti olan məsələnin və məlumatın sorğu edilməsinin məqsədinin ümumi təsviri;
- Sorğunun təcililiyi və ya arzuolunan cavablandırma müddəti.

4. Zərurət yarandıqda Tərəflər öz dövlətlərinin digər səlahiyyətli qurumlarından məlumatın əldə olunmasında bir-birlərini dəstəkləyirlər.

5. Sorğu tam həcmdə icra oluna bilmədiyi təqdirdə, Sorğu alan Tərəf bu Memorandumun əhatə dairəsinə aid olan digər müvafiq məlumatların təqdim edilməsi mümkünlüyünü nəzərdən keçirir.

6. Tərəflər arasında əməkdaşlıq təmənnasız olmaqla bərabərlik, aşkarlıq, qarşılıqlı yardım və məlumat tamlığı prinsipləri əsasında həyata keçirilir.

Maddə 6. İcazə olunan istifadə qaydaları

1. Bu Memorandumа uyğun olaraq Tərəflərin həyata keçirdikləri bütün fəaliyyətlər, xüsusilə də müvafiq milli qanunvericiliklə mühafizə olunan və yayılmasına məhdudiyyət qoyulmuş məlumatla bağlı fəaliyyət Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

2. Sorğu alan Tərəf məlumatın açıqlanması və digər əsaslı səbəblərə görə sorğunun icrasını öz milli qanunvericiliyinə zidd hesab edərsə, Memorandum çərçivəsində hər hansı yardımın göstərilməsindən tam və ya qismən imtina edə bilər. Belə olan halda Sorğu edən Tərəfə yazılı bildiriş təqdim olunur.

3. Bu Memorandum çərçivəsində əldə olunmuş məlumatdan Tərəflərin maraqlarına zidd məqsədlər üçün istifadə olunmur.

4. Bu Memorandum çərçivəsində əldə olunmuş məlumat yalnız məlumatı təqdim etmiş Tərəfin yazılı razılığı ilə üçüncü tərəfə ötürülə bilər.

Maddə 7. Texniki əməkdaşlıq

Tərəflər, milli qanunvericiliklərinə uyğun olaraq, Polşa Respublikası və Azərbaycan Respublikasında qiymətli kağızlar bazarlarında tənzimləyici çərçivənin inkişafının stimullaşdırılması və qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi məqsədilə zəruri olan kadr və resurs imkanlarının müəyyən edilməsi, təlim və texniki yardımların həyata keçirilməsi istiqamətində birgə çalışırlar.

Maddə 8. Məsləhətləşmə

1. Tərəflər bu Memorandumun icrasını daimi nəzarət altında saxlayır və onun icrasının təkmilləşdirilməsi məqsədilə müntəzəm olaraq və ya zərurət yarandıqda məsləhətləşmələr və müzakirələr aparırlar.

2. Bu Memorandumun təfsiri və tətbiqi ilə bağlı yarana biləcək fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

Maddə 9. Əlavə və dəyişikliklər

Bu Memorandumа əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Belə əlavə və dəyişikliklər bu Memorandumun ayrılmaz hissəsi olmaqla ayrıca protokollar formasında rəsmiləşdirilir və bu Memorandumun 10-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minir.

Maddə 10. Qüvvəyə minmə və ləğvetmə

1. Bu Memorandum, onun qüvvəyə minməsi üçün dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Azərbaycan tərəfindən diplomatik kanallar vasitəsilə yazılı bildirişin göndərildiyi tarixdə qüvvəyə minir.

2. Bu Memorandum qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən birinin digər Tərəfə bu Memorandumu ləğv etmək barədə diplomatik kanallar vasitəsilə üç ay öncədən yazılı şəkildə bildiriş göndərmədiyi təqdirdə qüvvədə qalır. Tərəflərdən biri belə bildiriş təqdim etdikdə, bu Memorandumun qüvvədən düşmə tarixinədək təqdim edilən bütün yardım sorğuları Sorğu alan Tərəfin həmin sorğuların icrasını tamamlamasınadək qüvvədə qalır. Memorandumun "İcazə olunan istifadə qaydaları"na dair müddəalarına Memorandumun qüvvəsinə xitam verildikdən sonra da əməl olunur.

3. Bu Memorandum Bakı şəhərində "21" may 2014-cü il tarixində Azərbaycan, ingilis və polyak dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Memorandumun maddələrinin təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

POLŞANIN MALİYYƏ NƏZARƏTİ AGENTLİYİ ADINDAN	**AZƏRBAYCAN RESPUBLİKASININ QİYMƏTLİ KAĞIZLAR ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ADINDAN**
ANDRZEJ YAKUBİAK	**RÜFƏT ASLANLI**
SƏDR	**SƏDR**